# YENİ VƏ İNTERAKTİV TƏLİM TEXNOLOGİYALARINDA İKT-DƏN İSTİFADƏNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Qasımova E.M.***
*(BDU, Tətbiqi riyaziyyat və kibernetika fakültəsi)*
*elnurazeynalova22@gmail.com*

***Xülasə:*** *Tezisdə informasiya kommunikasiya texnologiyalarının təhsil mühitinə tətbiqi məsələlərinə baxılmışdır. Müasir təhsil texnologiyalarının xarakteristik xüsusiyyətləri əks edilmiş, elektron təhsilin yeni paradiqmaları göstərilmişdir. İnteraktiv təhsilin tərkib hissələri və funksiyalarına baxılmışdır.*
***Açar sözlər:*** *İnformasiya kommunikasiya texnologiyaları, İKT, interaktiv təhsil, ənənəvi təhsil, müasir təhsil texnologiyaları.*

İnformasiya cəmiyyətində təhsil sisteminin necə qurulması, təhsilin modernləşdirilməsi üçün hansı texnologiyalardan və necə istifadə edilməsi hazırda ən aktual məsələlərdən biridir. Təhsil prosesinin effektivliyinin və keyfiyyətinin artırılması üçün informasiya kommunikasiya texnologiyalarının tətbiqinə sistemli yanaşmaq lazımdır. İnformasiya kommunikasiya texnologiyalarının yeni imkanlarından səmərəli istifadə edilməsi təhsil mühitində özünü müsbət şəkildə göstərir. İKT-nin təhsil mühitinə tətbiqində əsas məqsəd demokratikləşdirmə, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirə bilən, intellektual zənginliyə və potensial gücə malik olan gənc nəslin formalaşdırılmasıdır. İKT yeni pedaqoji texnologiyalardan istifadə edən müəllimin novatorluğu, onun yenilikçi kimi dünya təcrübəsindən istifadə edərək yeni tədris metodları və dərs tiplərini müəyyənləşdirməsi, təhsildə inkişafı üçün geniş imkanlar yaradır.

Yeni pedaqoji texnologiyalar interaktiv(fəal) təlimə əsaslanır. İnteraktiv təlim müəyyən olunan komponentlərlə şərtlənir, yəni təlimin məzmunu,metodları, öyrədici mühit və qiymətləndirmə. Fəal təlim yeniliklərdən istifadə ilə tədris prosesinin səmərəsini artıraraq məqsədə çatmaqda aparıcı mövqe tutur. İnteraktiv təlim və tədrisə əsaslanan İKT-dan istifadə tələbələrin

təfəkkür fəallığının, müstəqil araşdırma qabiliyyətinin, işgüzarlıq və yaradıcılıqlarının təkmilləşməsinə imkan verir. Yeni təlim texnologiyalarının tətbiqi ilə keçirilən müasir dərslərin ənənəvi dərslərdən bir çox üstün cəhətləri var. İnteraktiv dərs ənənəvi dərsdən onunla fərqlənir ki, uşaqlar özləri biliyi əldə edir, onlar fəaldır, təlim prosesinə cəlb olunurlar, müəllim bələdçi rolunu oynayır, amma sinfə hakim olmur, sinifdəki iqlim uşaqların sərbəstləşməsinə səbəb olur, uşaqlar öz fikirlərini söyləməyə qorxmurlar. Baxmayaraq ki, o ənənəvi dərsdən fərqlənir, interaktiv dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir, uşaqlar biliklərə yiyələnir, tədris proqramı zərər çəkmir. İnteraktiv təlimin əsas üstünlüyü real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır.

İnformasiya kommunikasiya texnologiyalarının geniş və hərtərəfli tətbiqi nəticəsində insan fəaliyyəti, bütövlükdə cəmiyyət dəyişikliklərə məruz qalır, tamamilə yeni reallıqlar, dəyərlər, sosial-psixoloji mühit formalaşır. Ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin İKT ilə təminatı Proqramı " bu istiqamətdə atılmış ən əhəmiyyətli addım olmuşdur.

**Ədəbiyyat**


1. Həsənova N.Ə. Təhsildə müasir informasiya kommunikasiya texnologiyaları, Kitabxanaşünaslıq və informasiya (elmi-nəzəri və praktiki jurnal), ISSN 2219-5882, Bakı-2014, №2 (14), səh 79-86
2. http://azkurs.org/didaktikann-muasir-problemleri-yeni-telim-texnologiyalarnn-met.html?page=2.

http://musabiqe.edu.az/upload/iblock/5d3/tehsilde_ikt_muhazire.doc